Azərbaycan Respublikası
Mədəniyyət Nazirliyi

F. Köçərli adına
Respublika Uşaq Kitabxanası



# Ədəbiyyatımızın söz zərgəri – Fikrət Sadıq

**Şair, publisist, ssenari müəllifi, kino redaktoru Fikrət Sadığın 90 illiyi münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait**

**Bakı -2020**

**Tərtibçilər:** **Ruhiyyə Məmmədli**
**Sevil Əhmədova**

**Redaktor:** **Könül Ağazadə**

**İxtisas redaktoru və buraxılışa məsul:** **Şəhla Qəmbərova**
*Əməkdar mədəniyyət işçisi*

**Ədəbiyyatımızın söz zərgəri – Fikrət Sadıq:** Fikrət Sadığın 90 illik yubileyi münasibətilə kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait / Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, F. Köçərli ad.Respublika Uşaq Kitabxanası; tərt.ed.R.Məmmədli; ixt.red. və burax.məsul Ş. Qəmbərova; red. K. Ağazadə. -Bakı: F. Köçərli ad.Respublika Uşaq Kitabxanası, 2020.- 30 s.

**©F. Köçərli adına Respublika Uşaq Kitabxanası, 2020**

## Giriş

Şair, publisist, ssenari müəllifi, kino redaktoru, Azərbaycan Yazıçılar Birliyinin üzvü (1963), Azərbaycanın Əməkdar mədəniyyət işçisi (1986), Azərbaycan Dövlət mükafatı laureatı (1990) Sadıqov Fikrət Abbas oğlu Azərbaycan poeziyasında özünəməxsus yaradıcılıq xüsusiyyətlərinə, orijinal poetik keyfiyyətlərə məxsus bir şəxsiyyətdir. Müasir Azərbaycan poeziyasının görkəmli nümayəndəsi, sözümüzün gücünü, saflığını, duruluğunu sərrast, duyğulu, müdrik, bir qədər də incə istehza qarışmış misralarında yaşadan, artıran və sabahlara daşıyan şair şeirləri ilə böyüklərin, kiçiklərin ürəyinə cığır açan, “Cığır”, “Ömrün bir günü”, “Dəniz küçəmizə gəlir”, “Sevgi yağışı”, “Məndən soruşsalar” və digər kitabları ilə oxucuların yaddaşına iz salan dəyərli sənətkarlarımızdandır. Fikrət Sadıq yazdığı mövzu üzərində müşahidələr aparan, fikirlərinin təzəliyi, qafiyələrinin gözəlliyi üçün düşünən, oxucunu düşündürən qələm sahibidir. Bəli, Fikrət Sadıq universal şair idi. O, xalq şeirinə və ana vəznimiz olan hecaya möhkəm bağlı idi. Onun qoşmaları, gəraylıları, bayatıları, hecanın müxtəlif bölgülərində yazdığı şeirləri dilinin sadəliyinə, fikrin, hissin obrazlılığına görə daima saflığını, təmizliyini qorumuşdur. Bəli, Fikrət Sadıq söz zərgəri idi. Onun hər kəlməsi bir naxış, babaların ata sözü, nənələrin ilmələri, butasıdır. Şairin şeirlərində tərənnüm etdiyi yüksək ideyalar oxucunu dərindən düşündürür, onun qəlbinə hakim kəsilir. Onun poeziyası müasir ədəbi nəslin keyfiyyət göstəricisidir desək yanılmarıq. Şairin vətəndaşlıq ruhunun böyüklüyünü özündə əks etdirən “İstiqlal bayrağı”, “Şəhidlər xiyabanında” və s. kimi şeirlərində onun ürəyinin daima Azərbaycanın dərdlərinə kökləndiyinin şahidi oluruq. F.Köçərli adına Respublika Uşaq Kitabxanasının elmi-metodika şöbəsi olaraq şairin yubileyi ərəfəsində onun zəngin yaradıcılığını oxucularımıza daha yaxından tanıtmaq məqsədilə bu vəsaiti işləməyi özümüzə borc bildik.

## Həyat və yaradıcılığı

Sadıqov Fikrət Abbas oğlu 1930-cu il mayın 30-da Şamaxı şəhərində anadan olmuşdur. Burada ibtidai, Kürdəmirdə isə orta təhsil aldıqdan sonra Bakıda sənət məktəbini bitirmişdir (1946). Gəncə neft kəşfiyyatının Naftalan qəsəbəsində, Tərtərdə neft kəşfiyyatı sahəsində elektrik montyoru işləmişdir (1946-1952). Sovet Ordusunda xidməti borcunu yerinə yetirəndən sonra Bakıda bir müddət kinomexanik kimi çalışmışdır. 1955-ci ildə Kürdəmirdə elektrik montyoru işlədiyi vaxt axşam məktəbini bitirmişdir. Sonra ADU-nun filologiya fakültəsində təhsil almışdır (1956-1961). Şamaxıda kənd müəllimi, rayon qəzeti redaksiyasında ədəbi işçi, ADU-nun Azərbaycan ədəbiyyatı tarixi kafedrasında baş laborant, Azərbaycan Sovet Ensiklopediyasının Baş redaksiyasında elmi redaktor, şöbə müdiri, C.Cabbarlı adına "Azərbaycanfilm" kinostudiyasında elmi-kütləvi və sənədli filmlər birliyi idarəsində baş redaktor, Azərbaycan Yazıçılar İttifaqında bədii ədəbiyyatın təbliği bürosunun direktoru olmuşdur (1961-1975). Azərbaycan Ali Soveti Rəyasət heyətinin Fəxri Fərmanı, "Əməkdar mədəniyyət işçisi" fəxri adına (1986), Azərbaycan Dövlət Mükafatı laureatına (1990) layiq görülmüş, "Əməkdə igidliyə görə" medalı ilə (1986) təltif olunmuşdur. Prezident təqaüdçüsüdür. Şair oxucularla ilk görüşə "Gənclik nəğmələri" almanaxında dərc edilmiş "Artist" və "Ana əli" şeirləri ilə gəlib. 1963-cü ildə "Cığır" adlı ilk şeir toplusu çapdan çıxmışdır. Sonralar "Ömrün bir günü", "Dəniz küçəmizə gəlir", "Sevgi yağışı", "İşığın yaşı", "Göydə nə var", "Yerdən göyə ümid", "Göydən alma düşmədi", "Məndən soruşsalar", "Gəlin yuyaq dənizi", "Bir parça Vətən", "Ömrün bir günü", "Gözlədiyim ömür", "Taleyin acığına" və s. kitabları işıq üzü görmüşdür. Vətənə, xalqa bağlı, vətəndaşlıq duyğuları ilə yaşayan bir şair kimi hər kəsin qəlbinə yol

tapmışdır. Poetik yaradıcılığında bədii tərcüməyə də yer vermişdir. Böyük Azərbaycan şairi Şəhriyarın məşhur "Azərbaycan" şeirini farscadan azərbaycan türkcəsinə çevirmişdir. Nəsr sahəsində də qiymətli hekayələr yazmışdır. "Xırdaca gəlin", "Daş balkon", "İlk məhəbbət haqqında daha bir hekayə", "Sinif-sinif oyunu" və s. hekayələr onun qələminin məhsuludur. Şair balaca balalarımızı da unutmamış, onlar üçün bir neçə pyes yazmışdır. "Yumaq top", "Bir parça vətən"-Bakıda, "Oğul"-Şamaxıda, "Biri vardı, biri yoxdu" (Alp Ağüz)- Lənkəranda tamaşaya qoyulmuşdur. Ssenariləri əsasında "Fransa Qəhrəmanı", "Naxçıvan-50", "Süleyman Rüstəm", "İçəri Şəhər" sənədli filmlər və "Cırtdanın yeni sərgüzəşti" cizgi filmi çəkilmişdir.

## Yubiley tədbirlərinin keçirilməsi

Şair Fikrət Sadığın anadan olmasının 90 illik yubileyi münasibəti ilə bütün mədəni-maarif müəssisələrində, o cümlədən kitabxanalarda kütləvi yubiley tədbirləri hazırlanmaqdadır. Kitabxananın görkəmli yerlərində "Mən yalnız bu günə qədər bilirəm...", "Mənəvi Sərvətimiz – Fikrət Sadıq", "Xalq ruhunun qoruyucusu", "Oxucularının ürəyinə cığır açan şair", "Oxucularını düşündürən qələm sahibi Fikrət Sadıq", "Sənin dadına Haqq çatar", "Fikrət Sadıq – 90" və s. kimi başlıqlarla kitab sərgiləri tərtib oluna bilər. Sərgidə Fikrət Sadığın irsini təbliğ edən şeirlərin toplusu, onun haqqında yazılmış kitablar, dövri mətbuatda dərc olunmuş qəzet və jurnal məqalələrinin foto-surətindən də istifadə etmək olar. Sərgidə yazıçının portreti, görkəmli şəxsiyyətlərin onun haqqında dedikləri sitatlar da ola bilər.

## Görkəmli şəxsiyyətlərin Fikrət Sadıq haqqında

Fikrət Sadığın ən yaxşı şeirləri ruhən cavan, ehtiraslı, lakin saçına çox tez müdriklik ağı düşmüş adamı xatırladan şeirlərdir. Şairin qocalığı poeziyanın gəncliyidir.

**Rəsul Rza,**
*Xalq şairi*

Fikrət Sadıq böyük xalq ruhunun qoruyucusu, bu ruhu saf və gözəl poetik rənglərlə zənginləşdirən qüdrətli şairimiz, Sabir və Hadi poeziyasındakı bədii ictimai siqləti davam etdirən əsl söz ustadıdır.

**Sabir Rüstəmxanlı,**
*yazıçı, şair, publisist*

Fikrət Sadıq böyük poeziya salonunda öz kürsüsü olan, öz oxucularına əsl sənət örnəkləri oxuyan, əvəzində xalqın minnətdarlıq alqışını qazanan bir şairdir.

**Məmməd Araz,**
*Xalq şairi*

Fikrət Sadığın bir suyu Dədə Qorquda bənzəyir. Çox da saçları ağappaqdır, çox da yüzilləri yormuş çinar görkəmlidir. Qələmi ki bir cavanınkından da itidir! Hər an ki onillər öncə olduğu sayaq Millətinə, Vətəninə, Sözə, Qələmə bütün Varlığı ilə, qəlbi ilə, Fikri ilə SADİQdir!

**Rafael Hüseynov,**
*Millət vəkili*

## Kitab sərgisi




































Kitabxanada orta yaş qrup oxucular arasında keçirilən maraqlı tədbirlərdən biri **icmal**dır. Şairin kitablarından birini seçib, onun haqqında ətraflı məlumat verilir. Sonra həmin kitabdakı əsərin müzakirəsi keçirilir. İcmalın məqsədi oxucunun əsərə qarşı marağını daha da artırmaqdır. Şairin kitablarının təbliğ etmək məqsədilə biz onun "Taleyin acığına" kitabının və kitabdakı "Alp Ağüz" əsərinin qısa icmalını təqdim edirik: "Uşaqlar, şairin "Taleyin acığına" kitabı 2003-cü ildə "Çinar-Çap" mətbəəsində çap olunmuşdur. Kitabda şairin şeirləri, poemaları, nağılları, pyesləri, tərcümələri, onun haqqında yazılan məqalələr, müsahibələr toplanmışdır. Bizim bu gün sizə söhbət açacağımız əsər isə onun uşaqlar və gənclər üçün yazmış iki hissədən ibarət "Alp Ağüz" nağıl-pyesidir. Bu pyes qədim və gözəl bir ənənə daşıyır. Bizim xalqımıza xas olan cəsurluq, qəhrəmanlıq, böyüyə hörmət, yalan danışmamaq xüsusiyyətləri əsərdə öz əksini tapır. Düz danışmaq, məhəbbət əsərdə yalana, qorxaqlığa qalib gəlir. Biz inanırıq ki, oxucular bu əsəri oxusalar çox bəyənəcəklər. Yadınızda saxlayın ki, nə vaxtsa nağıl da çevrilib həqiqət ola bilər."

Kitabxanada Fikrət Sadığın yubileyi münasibətilə tanınmış ədəbiyyatşünas alim İfrat Əliyevin qələmə aldığı şairin yaradıcılığından bəhs edən "Poetik İlhamın özünəməxsusluğu" **kitabının müzakirəsi**ni də təşkil etmək olar. Müəllif bu kitabda şairin fərdi-üslubi keyfiyyətlərini araşdırmışdır. Kitabın girişində Fikrət Sadığın həyat və yaradıcılığının mühüm illəri, şairin ədəbiyyat sahəsində göstərdiyi xidmətlərə görə aldığı fəxri ad, medal və dövlət mükafatları qeyd olunub. Monoqrafiyada şairin yaradıcılığına xas fərdi poetik üslubu şərtləndirən əlamət və xüsusiyyətlər üzə çıxarılmış, F.Sadığın poetik dünyagörüş cizgilərinə diqqət yetirilmişdir. Kitabda təkcə bir ədədi simanın fərdi üslubu araşdırılmayıb, eyni

zamanda XX əsrin sonlarında poeziyamızın mərhələlərinin müəyyənləşdirilməsi, bu inkişafda mühüm rol oynayan dil-üslub təmayüllərinin aşkarlanması və bir sıra məsələlər də öz əksini tapıb. Kitabda F.Sadıq şeirinin Azərbaycan poeziyasını zamanın ruhuna uyğun, vətəndaşlıq keyfiyyətləri ilə zənginləşdirdiyi vurğulanıb. Şairin "A rus", "Azərbaycan əsgəri", "Taxtabənd", "Gözlədiyim ömür", "Vətənin əl boyda daşı" şeirlərindən nümunələr təqdim olunub, bu və digər şeirlərinin mövzu, forma, qafiyə, vəzn, obrazlar və məcazlar sisteminin qeyri-adiliyindən bəhs edilib. "Poeziyada milli özünüdərk amalının güclənməsi" başlıqlı hissədə poeziyada insan və zaman, şəxsiyyət və cəmiyyət, tarix və təbiət münasibətlərinin başlıca mövzu olduğu və bu mövzuların fonunda insan və onun cəmiyyətdə mövqeyi, mahiyyəti açıqlanır. Kitabda F.Sadığın "Sevgi yağışı", "Taleyin acığına", "İşığın yaşı", "Yerdən göyə ümid", "Ağ cığır", "Dünya öz işindədir" adlı kitablarından nümunələr də öz yerini tutub.

Həmçinin kitabxanada seçilmiş şeirlərindən orta və böyük yaş qrup oxucular üçün **poeziya axşamı** da keçirmək olar. Poeziya axşamında şairin əsərlərinə yazılmış musiqilər hər şeirindən sonra səslənir, Fikrət Sadıq haqqında şairlər, yazıçılar, ədəbiyyatşünaslar, onu tanıyanlar çıxış edirlər. IX, X, XI sinif şagirdləri "Torpaq", "Yanacağam günəş kimi", "Taleyin acığına", "Monoloq", "Son şeir", "Çərxi-fələk", "Neynirəm", "Etiraf", "Vətən marşı", "Bu dünya belə dünyadı" və s. şeirlərini söyləyə bilərlər.

Kitabxanada Fikrət Sadığın yaradıcılığını oxucular arasında təbliğ etmək məqsədilə **şeir müsabiqələri**nin də təşkili məqsədəuyğundur. On gün ərzində uşaqlar şairin həyat və yaradıcılığı ilə tanış olub, sevdikləri şeirlərini əzbərləyərək,

müsabiqəyə qatılırlar. Fikrət Sadığın uşaqlar üçün qələmə aldığı şeirlərdən bir neçəsini sizə təqdim edirik.

**Dəcəl külək**

-Açım qapını, ana !
Yaman tövşüyür külək,
Bəlkə yorulub yazıq,
Bəlkə üşüyür külək?
-Açım qapını, ana !
Bəlkə qorxaqdır külək
Gör necə də ağlayır
Sanki, uşaqdır külək !
Qapını tıqqıldadır
Külək burda yalandan.
Hamımızı aldadıb
Güllə kimi o yandan
Pəncərəni sındırıb
Evə təpir özünü
Uşağın dodağından
Qapır "ana" sözünü.

**Ay**

Ay ana, Aya bir bax!
Keşlədə idi bayaq.
Avtobusa minmədi,
Metroda görünmədi,
Biz gəldik, o da gəldi;
Amma piyada gəldi,
Özü də bizdən qabaq.
Ay, ana Aya bir bax!
Fırlanıram fırlanır,
Dayanıram dayanır,
Gedirəm, gedir o da,

Yaman dəcəldir o daş
Yaxın düşmür oynayaq.
Ay, ana ona bir bax!
Küçəmizə gedir Ay,
Yoxsa bizə gedir Ay?!
Aya bax, irəlidə,
Qalxdı pillələri də.
Astanamıza çatdı,
Birdən nə oldu batdı?
Yoxa çıxdı Ay, ana,
Axı, çıxdı Ay, ana?!
Hara qaçdı bilmədim.
Niyə bizə gəlmədi?

**Çanaqlı bağa ilə qurbağa**

Bir çanaqlı
Çağa bağa
Girdi bağa,
Oynamağa.
Bir qurbağa
Onu görüb
Qoydu lağa:
-Buna bax, a!
Buna bax, a!
Əynindəki
Qına bax, a!
Yaman qorxdu,
Çana bağa.
Elə qaldı
Baxa-baxa.
Sonra dedi:
-Sən də bağa,
Mən də bağa.
Təkcə "qur" un

Artıqdı, ha!
Çox döşünə
Döymə, qağa!
Quruldama
Lovğa-lovğa.

**Körpə**
Vüqar hələ
Lap körpədir.
Nə bilsin ki,
Qardaş nədir.
İlqar evdə
Darıxır tək,
Deyir:-Qardaş,
Dur bir gəzək.
...Vüqar durmur.
İlqar hərdən
Evcik qurur...
Deyir:-Qardaş,
Gəl sən də qur.
…Vüqar qurmur.
İlqar səhər
Yeyir sıyıq.
Deyir:-Qardaş,
Ye bir qaşıq.
…Vüqar yemir.
Vüqar hələ
Lap körpədir.
Nə bilsin ki,
Qardaş nədir...

Uşaqların şairin yaradıcılığı haqqında bildiklərini müəyyən etmək üçün onlar arasında kiçik bir **anket sorğusu** və ya **test** keçirmək məqsədə müvafiq olar. Bu testi keçirməkdə

məqsədimiz oxucularda şairin həyat və yaradıcılığı haqqında bilgilərini müəyyən etməkdir. Aşağıda testi təqdim edirik:

1. Fikrət Sadıq neçənci ildə anadan olub?

A . 1928 B. 1932 C. 1930 D.1925

2. Fikrət Sadıq hansı rayonda anadan olmuşdur?

A . Şəki B. İsmayıllı C. Lənkəran D. Şamaxı

3. İlk kitabı neçənci ildə çapdan çıxıb?

A . 1964 B. 1963 C. 1966 D. 1962

4. Aşağıdakı hansı cizgi filmin ssenari müəllifi Fikrət Sadıqdır?

A . “Tülkü həccə gedir” B. “Sehrlənmiş küpə” C. “Pıspısa xanım və Siçan bəy” D. “Cırtdanın yeni sərgüzəşti”

5. Fikrət Sadıq əmək fəaliyyətinə hansı sənətlə başlayıb?

A. Kinomexanik B. Ədəbi işçi C. Elektrik montyoru D. Müəllim

6. Fikrət Sadıq hansı mükafata layiq görülüb?

A . “Əməkdə igidliyə görə” medalı B. “Tərəqqi” medalı C. “Vətənə xidmətə görə” ordeni D. “Şöhrət” ordeni

6. Şairin ilk kitabı hansıdır?

A. “Cırtdan hara getmişdir?” B. “Cığır” C. “Ömrün bir günü” D. “Taleyin acığına”

8. Hansı şairə həsr olunmuş sənədli filmin ssenari müəllifi Fikrət Sadıqdır?

A . “Səməd Vurğun” B. “Süleyman Rüstəm” C. “Hüseyn Cavid” D. “Rəsul Rza”

9. “Topumun yeddi rəngi var
Hamısı ona yaraşır.”
Bu musiqini cizgi filmində şairin hansı qəhrəmanı oxuyur?

A . Cırtdan B. Alp Ağüz C. Alp Qara D. Ayxan

10. “Ölümdən niyə qorxum ki,
Doğulanda ölmüşəm mən.”
Bu misra şairin hansı şeirindəndir?

A. Son şeir B. Bu dünya belə dünyadı C. Etiraf D. Qorxuram

**Cavablar** : 1. C 4. D 7. B 10. C 2. D 5. C 8. B 3.B 6. A 9. A

Kitabxanada oxucular tərəfindən sevilən tədbirlərdən biri də **ədəbi-bədii gecə**dir. Gecəyə məktəblilər, müəllimlər, məktəb direktorları, bir neçə şair və yazıçıları, oxucularımızı, Fikrət Sadığın ailə üzvlərini dəvət etmək olar. “Mən adicə insanam...” adlı ədəbi-bədii gecənin ssenarisini təqdim edirik:

**I Aparıcı:** Müasir poeziyamızın gözəl şairi, kiçik yaşlı oxucuları da yaddan çıxarmayan gözəl şeirlər müəllifi Fikrət Sadığın yubileyi münasiətilə ədəbi-bədii gecəyə toplaşan bütün qonaqları və tədbir iştirakçılarını salamlayırıq! Gəlin əvvəlcə bu gözəl şairimizin həyat yoluna nəzər salaq; O, istedadlar yetişdirən Şamaxıda dünyaya göz açıb, uşaqlığı müharibənin ağır illəriylə baş-başa gəlib.

**II Aparıcı:** Fikrət Sadıq çox maraqlı, lakin çətin və ağır günlər yaşamış, uşaqlıq çağlarından atasından ayrılmış, uzun

müddətdən sonra ata ilə görüşmək ona nəsib olmuşdur. On iki yaşından sənət məktəbinə girmiş, elektrik montyoru, kinomexanik işləmiş, doğulduğu Şamaxı rayonunda müəllimlik etmiş, qəzetdə müxbir kimi çalışmışdır...

**I Aparıcı:** Hər hansı bir şairin şeirlərini oxuduqda, hətta tanımadığımız bir şairin şeirlərini oxuduqda belə şeirlərdən şairin həyatı haqqında bizdə təsəvvür yaranır. Fikrət Sadığın həyatını bilmək istəsən şeirlərinə müraciət etmək kifayətdir. Şair deyir:

Küçələr əlimlə çıraqban oldu,
Günəşə büründü kəndin yolları.
İşıqlar çiçəyim, mən bağban oldum,
Qorudum onları, sevdim onları.
Hardasa, kiminsə işığı sönüb,
Qəlbimin çırağı sönüb sanmışam.
Qollarım neçə yol məftilə dönüb,
İşıq yanmayınca, özüm yanmışam.

**II Aparıcı:** 37-ci ilin dəhşətləri şairin ailəsindən də yan keçməyib. Şairin atası represiya qurbanlarının siyahısında olub və tutulub. Şair ömrünün xeyli dövrünü atasız keçirib. Otuz illik həsrətdən sonra ona doğma atası ilə görüş nəsib olmuş və bu ata həsrəti misralarına çökmüş, şeirlərinə hopmuşdur.

Atam qayıtdı dedilər,
İnanmadım, mən inanmadım.
Yada düşdü ötən illər...
Gəzməyə öyrənməmiş,
Dərdin ağır yükünü
Daşımağı öyrəndim.
Əlifba oxumamış,

Ürəyimdə sükutla
Daşımağı öyrəndim.

Şairin uşaqlıq illəri qanlı-qadalı müharibə illərinə təsadüf edir. O dəhşətli illərin uşaqları qəribə taleli uşaqlar olmuşlar. Onlar vaxtından qabaq böyümüş olurlar. Ataları, babaları döyüşlərə yollananda onlar valideynlərinin yerini tutmuş, onları əvəz etmişlər. Fikrət də belə taleli uşaqlardan olmuş və onun əzablı, cəsur, dözümlü uşaqlığı bütün yaradıcılığının qayəsi olmuşdur.

**I Aparıcı:** Şairin "Ağ cığır" poemasında müharibənin qanlı-qadalı ili, 1943-cü il təsvir olunur. On iki-on üç yaşlı uşaqlar hərbi qatarla cəbhəyə qaçmaq, gedib atalarına qoşulub, döyüş meydanında yağılarla üz-üzə durmaq istəyirlər. Poemada bu uşaqlardan üçü Sanqaçal stansiyasında təsvir olunur. Onlardan biri Fikrətin özüdür. Lakin o uşaqların bütün ciddi-cəhdlərinə baxmayaraq, onları geriyə, öz evlərinə qaytarırlar. Çünki hələ dava yaşlı deyillər. Lakin əsərdən hasil olan ideya budur ki, elin, obanın, xalqın ağır günündə uşaqlar xalqımıza kömək etməyə həmişə hazırdır. Fikrət Sadıq şeirlərində yaratdığı təsirli lövhələrlə oxucularda müharibə əleyhinə kəskin nifrət yaradır. Bu lövhələr canlı olduğu üçün uzun zaman oxucunun xatirində dərin silinməz izlər buraxır. Şairin "Yaralı evlər" şeirində yüksək emosiya, dərin hiss və həyəcan vardır. Gəlin, dinləyək! ("Yaralı evlər" şeiri dinlənilir.)

**I Aparıcı:** Şair şeirlərində II dünya müharibəsinin vurduğu ağır yaralardan ürək ağrısı ilə söhbət açır. Tale ona daha dəhşətli ağrılardan yazmağı məcbur etdi. Uzun illlər erməni qəsbkarları tərəfindən işğal altında qalmış torpaqlarımız,

vətənindən didərgin düşmüş əhalimizin halı, əsirlikdə olan oğullarımızın taleyi şairin şeirlərində ürək ağrısı ilə duyulur. Şeirləri oxuduqda onun qəlbinin necə od tutub yandığı aşkarcasına hiss olunur. (Oxucu “Yanğın” şeirini söyləyir.) Oxucu:

Erməni, ay erməni!
Yandırdı bu şər məni.
Yandırdı yandırdığın
Dağlar, dərələr məni.
Ay dünyanı oynadan
Təzə qazan qaynadan
Özüm oz torpağımı
Yandırmaram, ay nadan!
Ciyərim, canım yanır,
Azərbaycanım yanır.
Orda doğma torpağa
Qarışan qanım yanır.
Orda göz yaşım yanır,
Öz dağım-daşım yanır.
Yanan dağ-daşdı, alçaq!
Sanma yaddaşım yanır.
Dünya məətəl qalıb,
BMT, ATƏT susur.
Quldur tövbə eləməz.
Qoca təbiət susur.
Saxla bunu yadında,
Gəl, əl çək inadından.
Sabah sən yanacaqsan
Mənim qəzəb odumda.

**I Aparıcı:** Şair şeirlərində böyük vurğunluqla, qurub-yaradan insanın qəhrəmanlığından danışır, xalqımızın

tarixi abidələrini vəsf edir, ana torpağın müqəddəsliyindən söhbət açır.

Xalça – qədim xəritə,
hikmətlə dolu şeir,
Burda zərrəcə nöqtə
bir kitablıq söz deyir.
Xalça uzaq dünənin
bu günə gül xonçası
Min bir əfsanə söylər
hər gülü, hər qönçəsi.
Əlifbanı bilməyən
nənəmin əlyazması,
Bir gülünə həkk olub
həm özü, həm dünyası.

**II Aparıcı:** Duyursunuz, şeirdəki hikməti?! Şair qədim xalıları əlifba bilməyən nənəsinin və nənələrimizin əlyazması kimi mənalandırır.

**I Aparıcı:** Fikrət Sadıq şeirlərində saf eşqi, vəfalı yarı, ana, Vətən məhəbbətini tərənnüm edir. Şairin şeirlərində tərənnüm etdiyi yüksək ideyalar oxucunu dərindən düşündürür, onun qəlbinə hakim kəsilir. Vətən məhəbbəti onun yaradıcılığına əsaslı şəkildə hopmuşdur.

**II Aparıcı:**

Əsli xar olanın nəsli xar olar,
Əsli - kökü olan bəxtiyar olar.
Anadan əvvəl - torpaq - Anadır!
Torpaq olan yerdə həyat var olar.
Torpaq - Vətən! Vətən - ulu, müqəddəs!
Bunu bilməlidir Vətəndə hər kəs.

Torpaq – Ana yurddur!
Anayçın - oğul Ölümə atılsa,
Ana yurd ölməz!
(Oxucu “Xalq hikməti” şeirini söyləyir.)

**I Aparıcı:** Fikrət Sadığın bir şair kimi ən çox müraciət etdiyi mövzulardan biri əfsanələr, dastanlar, nağıllardır. Şair təkcə Azərbaycan xalqının deyil, bir çox digər xalqların əfsanələrini də qələmə almışdır. “Balıqçı və su pərisi”, “Bacı-qardaş nağılı”, “Ana əli”, “Cırtdan hara getmişdi”. “Rəvayət” belə əsərlərdəndir. *(“Rəvayət” poemasından səhnələşdirilmiş parça tamaşaçılara təqdim olunur.)*
**Aparıcı:** Ululardan eşitmişəm. Keçmişdə bir məmləkətdə bir zalım şah yaşardı. Onun həndəvərində bir də bir qəssab vardı. Hər ikisi möhkəm dost və baş kəsməkdə peşəkardı. Bir səhər baş meydanda bir cavanın bir əlini kəsməyi əmr edir padşah. İşin şirin yerində qəssabın daş ürəyi yumşalır birdən, diz çöküb, yalvarır.

**Qəssab:** Şahım, onu mənə bağışla, əgər günahı varsa cəzasını verər allah.

**Aparıcı:** Şah yerə salmadı dostunun sözün. Cavanı azad etdi elə həmin gün. Amma demə, qəssabın bir pis şakəri varmış. Başa qaxarmış tez-tez elədiyi yaxşılığı. Görüşəndə, söz düşəndə, gündüz də, gecə də. Soruşardı hey...

**Qəssab:** Əlin necədi? Necədi?

**Aparıcı:** Bir az keçər yenə deyər.

**Qəssab:** Əlin necədi? Necədi?

**Aparıcı:** O da eşitdikcə əlini gizlədərdi. Bir dəfə, üç dəfə, beş dəfə, on dəfə, bir dəfə də son dəfə.

**Qəssab:** Əlin necədi? Necədi?

**Cavan:** Bəsdir başıma qaxdın!

**Aparıcı:** Cavan qapdı baltanı, kəsib atdı əlini. Rəvayəti söyləyənlər bunu da deyirlər ki, qəssab sonra peşman olub. Tutulub əl-ayağı, tutulub dili. Yalandımı, doğrudurmu, deyə bilmərəm. Amma buna bənzər nəsə olub. Hikmət dolu, ibrət dolu, eyham dolu bir məsəldi bu!

**I Aparıcı:** Uşaqlar, "Yumaq top" nağıl-pyesi əsasında ssenarisi şairə məxsus olan **"Cırtdanın yeni sərgüzəşti"** cizgi filminə baxmısınızmı? Bu film balaca balalarımız üçün çəkilmişdir. Azərbaycan xalq nağılının məşhur qəhrəmanının bizim günlərdə başına gələn yeni əyləncəli sərgüzəştlərindən söhbət açılır. Filmdə xalq folklorunun fantastik motivləri ilə müasirlik bir-birini tamamlayır.

**II Aparıcı:** İnsan düşüncəsinin məhsulu olan nəhəng müasir texnika bəşər övladına həmişə kömək etməyə hazırdır. Budur, əfsanəvi Simurq quşu, uçan xalça sehrli yumağın arxasınca nə qədər uçurlarsa xeyri olmur, onu tuta bilmirlər. Köməyə güclü və xeyirxah raket gəlir. O sehrli yumağı tutub balaca Cırtdana qaytarır. Uşaqlar, cizgi filmini seyr eləmək istəyirsiniz? Elə isə buyurun baxın. *("Cırtdanın yeni sərgüzəşti" cizgi filmi nümayiş olunur.)*

**I Aparıcı:** İndi kitab oxumamaq
Olub təzə xəstəlik.
Kitabı ver oxuyana
Birini də üstəlik.

**II Aparıcı:** Və tədbirimizi şairin ustad Şəhriyardan tərcümə etmiş məşhur "Azərbaycan" şeiri ilə bağlayırıq.

## Ədəbiyyat siyahısı

***Əsərləri***

Ağ-qara şeirlər : Ağı-poema. - Bakı : Vektor, 2005. - 52 s. : foto.

Balaca kirpi. - Bakı : Renessans-A, 2017. - 12 s. : rəngli il. - Bərpanəşr layihəsi.

Bir parça Vətən : rəvayət. - Bakı : Şirvannəşr, 1997. - 8 s. : şək.

Bugünnamə - 3. Dördlüklər. - Bakı : Elm və Təhsil, 2010. - 230 s.

"Bugünnamə"dən ilmələr. Dördlüklər : cib kitabı. - Bakı : Nurlan, 2011. - 112 s. : il.

Gözlədiyim ömür : şeirlər və poemalar. - Bakı : Şirvannəşr, 2001. - 270 s.

Halbuki. - Bakı:  Nərgiz, 2010. – 392 s.

Hazırcavab : Atmacalar, deyimlər, zarafatlar, kəsə sözlər, miniatür şeirlər. - Bakı : Nərgiz, 2013. - 203 s. : portr.

Kəsə sözlər : Miniatür şeirlər. - Bakı : Mütərcim, 2010. - 48 s. - ("525 kitab" seriyası).

Oxu kitabı : poeziya. - Bakı : Nərgiz, 2009. - 40 s.

Ömrün bir günü: Böyük Sabirin şərəfinə : lirik poema. - Bakı : Şirvannəşr, 2002. - 16 s.

Ömrün bir günü : Böyük Sabirin şərəfinə: lirik poema  - Bakı : Şirvannəşr, 2012. - 20 s. : portr.

Şeirli əlifba : Poeziya. - Bakı : Ayna Mətbu Evi, 2007. - 33 s. : rəngli şək.

Taleyin acığına : poeziya. - Bakı : Çinar-çap, 2003. - 528 s. : portr.

### *Kitablarda*

Əlifba dərsində ; Alma harda bitir? ; Gilə və b. şeirlər // Azərbaycan uşaq ədəbiyyatı antologiyası : şeirlər, nağıllar, hekayələr, pyeslər, ədəbi tənqid. - Bakı : Elm və Təhsil, 2014. - S. 21-27

Əlifbanı bilməyən nənəmin əlyazması ; Ucal bayrağım : şeirlər // Vətənə nəğmə çələngi. - Bakı : Qoliaf, 2011. - S. 207-211.

İki qorxaq ; Ağacdələn ; Dələ və b. şeirlər // Məmmədova Ş. Azərbaycan uşaq ədəbiyyatı antologiyası : 3 cilddə. - Bakı : [s. n.], 2018. – C. 2 : Müasir uşaq poeziyası C. 2. 215-235. - (Uşaq ədəbiyyatı). - (cildli).

Kinomexanikin bacısı : ilk məhəbbət haqqında bir hekayə // Sadıq F. Taleyin acığına. – Bakı : Çinar-Çap, 2003. – S. 347-350.

Körpü : sənədli televiziya filmi // Sadıq F. Taleyin acığına. – Bakı : Çinar-Çap, 2003. – S. 351-352.

Tanrı türkü qorusun ; Salam, çadırdaşım ; Marş ; Azərbaycan əsgərinə : şeirlər // Azərbaycan harayı. - Bakı : Respublika Xatirə Kitabı Redaksiyası, 2002. - S. 76-81.

### *Mətbuatda*

Afərin; Yalnız qocalanda bilirsən bunu; Yaşadır və b. : şeirlər // Kaspi. - 2011. - 21-23 may. - № 89.

"Bugünnamə"dən : dördlüklər // Ədəbiyyat qəzeti. - 2009. - 15 may. - S. 6. - Dördlüklər "Təzadlar", "Yaxşıların tərifi", "Yuxu haqqında" və s. başlıqlar altında verilmişdir.

Bugünnamə ; Eşq nədir ; İşıq dördlükləri və s. : şeirlər //

Azərbaycan. - 2008. - № 9. - S. 95-100.

Bugünnamə : Dördlüklər // Ədəbiyyat qəzeti. – 2007 . – 20 dekabr. - S. 4.

Dördlüklər // Azərbaycan. - 2009. - № 7. - S. 116-118.

Dördlüklər : şeirlər // Ədəbiyyat qəzeti. - 2008. - 11 aprel. - S.4.

Görə bilmirəm ; Baş üstə ; Atalar demiş : [və b. şeirlər] // Ədəbiyyat qəzeti. – 2006. – 29 sentyabr. – S. 3.

Qış : şeir // Göyərçin. - 2020. - № 2. - S. 5.

Məhəmməd Hadi : Məhəmməd Hadi - 140 // Ədəbiyyat qəzeti. - 2019. - 30 noyabr. - № 43/44. - S. 20.

80 yaş və pillələr ; Azərbaycanda şəxs əvəzlikləri ; Təzadlar : Şeir oxumağa adam tapmıram : şeirlər // Ədəbiyyat qəzeti. – 2003. – 31 oktyabr.

Səmənim // Göyərçin. - 2011. - N 3. - S. 2.

Təkərləmə : şeir // Kaspi. - 2013. - 12-14 yanvar. - № 5. - S. 18.

Torpaq : ikinci şeir // Kaspi. - 2012. - 14-16 yanvar. - № 228. - S. 16.

Torpaq ; Yenə Təbriz düşdü yada ; Afərin və b. : şeirlər // 525-ci qəzet. - 2012. - 1 mart. - № 37. - S. 7.

Yalnız qocalanda bilirsən bunu ; Yaşadır ; Əlləri qoynunda və s. : şeirlər // Ədəbiyyat qəzeti. - 2011. - 4 fevral. - № 4. - S. 4.

Şəhid : şeir // Ədəbiyyat qəzeti. - 2016. - 14 may. - № 18. - S. 14.

Sarıtorpaq ; Hal-əhval tutmaq ; Tumurcuq və b. şeirlər // Ədəbiyyat qəzeti. - 2016. - 1 oktyabr. - № 36. - S. 3.

Halbuki ; Və lakin ; Yaşadır ; Yalnız Qocalanda bilirsən bunu və b. şeirlər // Kaspi. - 2016. - 19 noyabr. - № 189. - S. 11.

***Haqqında***
**Kitablarda**

**Abbas İ.** Ümid işığı // Sadıq F. Taleyin acığına. – Bakı : Çinar-Çap, 2003. – S. 381-385.

**Abdullazadə A.** Ömrün ağ cığırları // Sadıq F. Taleyin acığına. – Bakı : Çinar-Çap, 2003. – S. 414.

**Ağasəfa. Məktub** // Sadıq F. Taleyin acığına. – Bakı : Çinar-Çap, 2003. – S. 411.

**Axundov A.** "Şeir sənəti və dil" kitabından // Sadıq F. Taleyin acığına. – Bakı : Çinar-Çap, 2003. – S. 373.

**Anar.** Şairlər yurdunun şair oğlu // Sadıq F. Taleyin acığına. – Bakı : Çinar-Çap, 2003. – S. 437.

**Araz M.** Bir qərinənin poeziyası // Sadıq F. Taleyin acığına. – Bakı : Çinar-Çap, 2003. – S. 397-398.

**Aslan M.** Kəpənək // Sadıq F. Taleyin acığına. – Bakı : Çinar-Çap, 2003. – S. 396.

**Bahadur X.** Şeirimizin Dədə Qorqudu // Sadıq F. Taleyin acığına. – Bakı : Çinar-Çap, 2003. – S. 437-439.

**Balasadıq.** Şair qardaşım // Sadıq F. Taleyin acığına. – Bakı : Çinar-Çap, 2003. – S. 456.

**Bərdəli B.** Gözlədiyin ömürdümü... // Sadıq F. Taleyin acığına. – Bakı : Çinar-Çap, 2003. – S. 461-462.

**Borodulin R.** Od qardaşları : məqalədən bir parça // Sadıq F. Taleyin acığına. – Bakı : Çinar-Çap, 2003. – S. 409-411.

**Cəfərzadə Ə. , Aslan M.** "Söz hörgüsü"nün kərpicləri // Sadıq F. Taleyin acığına. – Bakı : Çinar-Çap, 2003. – S. 369-372.

**Cəfərzadə Ə.** Sən kimsən, Fikrət // Sadıq F. Taleyin acığına. – Bakı : Çinar-Çap, 2003. – S.434-436.

**Dilbazi M.** "Bir gəncin şeirləri haqqında" məqaləsindən // Sadıq F. Taleyin acığına. – Bakı : Çinar-Çap, 2003. – S. 356.

**Ehtiram.** Gözlədiyim kitab// Sadıq F. Taleyin acığına. – Bakı : Çinar-Çap, 2003. – S. 475.

**Elçin.** Sənət və istedad // Sadıq F. Taleyin acığına. – Bakı : Çinar-Çap, 2003. – S. 376-380.

**Elçin.** Şəfqətlə, məhəbbətlə // Sadıq F. Taleyin acığına. – Bakı : Çinar-Çap, 2003. – S.400-401.

**Əbdürrəhmanlı N.** Sözdən söz çıxaran kişinin son kitabı haqqında // Sadıq F. Taleyin acığına. – Bakı : Çinar-Çap, 2003. – S.457.

**Əhmədli S.** Öncə Vətən // Sadıq F. Taleyin acığına. – Bakı : Çinar-Çap, 2003. – S. 420.

**Əlioğlu M.** "Beş poema haqqında mülahizələr" məqaləsindən // Sadıq F. Taleyin acığına. – Bakı : Çinar-Çap, 2003. – S. 374.

**Əlioğlu P.** Şükranlar poeziyası // Sadıq F. Taleyin acığına. – Bakı : Çinar-Çap, 2003. – S. 454.

**Əmrahoğlu A.** "Yox" deməyə utanır // Sadıq F. Taleyin acığına. – Bakı : Çinar-Çap, 2003. – S. 456.

**Əylisili Ə.** Su // Sadıq F. Taleyin acığına. – Bakı : Çinar-Çap,

2003. – S. 395.

**Fazil.** Sənin dəftərçənin dürdanələrindən // Sadıq F. Taleyin acığına. – Bakı : Çinar-Çap, 2003. – S. 335.

**Fikrətoğlu O.** Ay, Dadaş! // Sadıq F. Taleyin acığına. – Bakı : Çinar-Çap, 2003. – S. 455.

**Gülgün M. , Azəroğlu B**. Qərib at, qəribə at // Sadıq F. Taleyin acığına. – Bakı : Çinar-Çap, 2003. – S. 399.

**Hüseynov H.** Cığır // Sadıq F. Taleyin acığına. – Bakı : Çinar-Çap, 2003. – S. 357.

**Xəlil Z**. Uşaqların Fikrət Sadığı // Seçilmiş əsərləri. 6 cilddə. VI c. – Bakı : 2008. - S. 271-275.

**Xəlilli Ş.** Şeirli Əlifba // Sadıq F. Taleyin acığına. – Bakı : Çinar-Çap, 2003. – S. 424-425.

**Kələntərli K.** Həyat qamçı idi, bizsə fırfıra // Sadıq F. Taleyin acığına. – Bakı : Çinar-Çap, 2003. – S. 411.

**Qabil.** Zərgər şairimiz // Sadıq F. Taleyin acığına. – Bakı : Çinar-Çap, 2003. – S. 433.

**Məmməd N.** Sən kimsən, Fikrət Sadıq... // Sadıq F. Taleyin acığına. – Bakı : Çinar-Çap, 2003. – S. 452-453.

**Məmmədli A**. Cırtdanın yeni sərgüzəştləri // Sadıq F. Taleyin acığına. – Bakı : Çinar-Çap, 2003. – S. 392-395.

**Məmmədli A.** Sən qocalma, qoca var // Sadıq F. Taleyin acığına. – Bakı : Çinar-Çap, 2003. – S. 416-419.

**Məmmədli F.** Şairin işıq taleyi : Fikrət Sadığa həsr edilmiş ədəbi esse // Seçilmiş əsərləri. - Bakı : Nurlan, 2009. – C. 3. - S. 540-541 ; Sadıq F. Taleyin acığına. – Bakı : Çinar-Çap, 2003. – S.435.

**Musayeva İ.** Fikrət Sadıq poeziyasında lövhələrin assosiasiyası // Sadıq F. Taleyin acığına. – Bakı : Çinar-Çap, 2003. – S. 44-

450.

**Musayeva İ.** Dəniz səbirli şair // Sadıq F. Taleyin acığına. – Bakı : Çinar-Çap, 2003. – S. 441-443.

**Mütəllimov T.** “Dəniz küçəmizə gəlir” // Sadıq F. Taleyin acığına. – Bakı : Çinar-Çap, 2003. – S. 360-361.

**Nəbioğlu R.** Dərd məni şair elədi // Sadıq F. Taleyin acığına. – Bakı : Çinar-Çap, 2003. – S. 481-486.

**Nəbiyev B.** Şirvan şeiri “Kommunist”də // Sadıq F. Taleyin acığına. – Bakı : Çinar-Çap, 2003. – S. 359.

**Novruz C.** Poeziya taledən başlayır // Sadıq F. Taleyin acığına. – Bakı : Çinar-Çap, 2003. – S. 359.

**Rüstəmxzanlı S.** İşıq və xeyirxahlıq şairi // Sadıq F. Taleyin acığına. – Bakı : Çinar-Çap, 2003. – S. 426-432.

**Rza X.** Ümid və məhəbbət poeziyası // Sadıq F. Taleyin acığına. – Bakı : Çinar-Çap, 2003. – S. 386-389.

**Rza R.** Şair təcrübəsi // Sadıq F. Taleyin acığına. – Bakı : Çinar-Çap, 2003. – S. 365.

**Sadıq İ.** Gözlədiyim poeziya // Sadıq F. Taleyin acığına. – Bakı : Çinar-Çap, 2003. – S.476-480.

**Səid Afurcalı B.** Fələkdən sinə dağlıyam // Sadıq F. Taleyin acığına. – Bakı : Çinar-Çap, 2003. – S. 470-474.

**Şəkərli S.** Mənim əziz dostum, övladlarımın əziz babası Fikrət Sadıq // Sadıq F. Taleyin acığına. – Bakı : Çinar-Çap, 2003. – S. 458.

**Şəmsizadə N.** Şeir göydən enəndə // Sadıq F. Taleyin acığına. – Bakı : Çinar-Çap, 2003. – S. 423.

**Şükürov K.** Sözün məhrəmliyi // Sadıq F. Taleyin acığına. –

Bakı : Çinar-Çap, 2003. – S. 389-392.

**Taisoğlu T.** Növbə daşları // Sadıq F. Taleyin acığına. – Bakı : Çinar-Çap, 2003. – S. 364.

**Vahabzadə B.** Yola çıxan cığır// Sadıq F. Taleyin acığına. – Bakı : Çinar-Çap, 2003. – S. 356.

**Yaqub M.** İşıq ömrü // Sadıq F. Taleyin acığına. – Bakı : Çinar-Çap, 2003. – S. 440.

**Yusifli V.** Şair ömrü // Sadıq F. Taleyin acığına. – Bakı : Çinar-Çap, 2003. – S. 463-469.

***Rus dilində***

**Кафаров Д.** Здравствуй, «Дядя свет» // Sadıq F. Taleyin acığına. – Bakı : Çinar-Çap, 2003. – S. 402-403.

**Кафаров Д.** Тропа таланта // Sadıq F. Taleyin acığına. – Bakı : Çinar-Çap, 2003. – S. 403-407.

**Мамедзаде С**. Время, вперёд! // Sadıq F. Taleyin acığına. – Bakı : Çinar-Çap, 2003. – S. 407-408.

**Плещевеня В**. Катюши Михаила Шолохова // Sadıq F. Taleyin acığına. – Bakı : Çinar-Çap, 2003. – S. 408.

**Dövri mətbuatda**

**Akimova E.** Bilinmir ömürdür, ya da ki, oyun : "Səni axtarıram, poeziya" silsiləsindən IV yazı // Ədəbiyyat qəzeti. - 2016. - 2 iyul. - № 25. - S. 20-21.

**Elcanlı S.** Göylərdən gələn səs : şair, publisist Fikrət Sadıq haqqında // Ədəbiyyat qəzeti. - 2015. - 18 aprel. - № 22/23. - S. 8.

**Əsəd F.** Fikrət Sadıq: Yeri görünən köhnə kişi // Ədəbiyyat qəzeti. - 2017. - 25 yanvar. - № 3. - S. 25.

**Fikrət Sadıq (1930-2016)** : nekroloq / Azərbaycan Yazıçılar Birliyi // Ədəbiyyat qəzeti. - 2016. - 19 noyabr. - № 43. - S. 2.

**Fikrətoğlu O.** Məni də özünlə apararsan, ata : [yazıçı Fikrət Sadıq haqqında] // Ədəbiyyat qəzeti. - 2016. - 26 noyabr. - № 44/45. - S. 7.

**Həsənzadə N.** Heyif səndən, Fikrət // Ədəbiyyat qəzeti. - 2016. - 19 noyabr. - № 43. - S. 3.

**Hüseynoğlu S.** Qorqudlaşan Fikrət Sadıq // Ədəbiyyat qəzeti. - 2015. - 13 iyun. - № 38/40. - S. 31.

**Xanlarova Y.** Şair portretini tamamlayan poeziya : [şair Fikrət Sadıqın yaradıcılığı haqqında] // Ədəbiyyat qəzeti. - 2016. - 14 may. - № 18. - S. 14.

**Xanlarova Y.** Unudulmaz şair : [Fikrət Sadıq haqqında] // Kaspi. - 2016. - 26 noyabr. - № 194. - S. 24.

**Kamal R.** Qəribə və qərib Fikrət Sadıq // Ədəbiyyat qəzeti. - 2016. - 24 dekabr. - № 51/52. - S. 14.

**Qurbanova-Xanlarova Y.** 85 illik yubileyiniz mübarək, Fikrət Sadıq // Kaspi. - 2015. - 6 iyun. - № 101. - S. 18.

**Rüstəmxanlı S.** İşıq və xeyirxahlıq şairi : [Fikrət Sadıq haqqında] // Ədəbiyyat qəzeti. - 2016. - 19 noyabr. - № 43. - S. 3,5.

**Şahməmməd.** Qələm : Fikrət Sadıq - 85 // Ədəbiyyat qəzeti. - 2015. - 16 yanvar. - № 2/3. - S. 20.

# Ədəbiyyatımızın söz zərgəri - Fikrət Sadıq

**(metodik vəsait)**

**Ünvan:AZ-1022 Bakı şəh.,S.Vurğun küç.88;**
**E-mail:info@clb.az**
**URL:www.clb.az**

F.Köçərli adına Respublika
Uşaq Kitabxanasında
çap olunmuşdur.
Sifariş: 22
Çapa imzalanmışdır: 15.05.2020
Tirajı:100
Pulsuz